№ 2 (15) 2022

JURNALİSTİKA

Arzu Nəsimi qızı İsayeva
*Bakı Dövlət Universiteti Jurnalistika fakültəsi*
*Multimedia və elektron kommunikasiya*
*kafedrasının müəllimi, filologiya üzrə fəlsəfə doktoru*

## MÜASİR TELEVİZİYA YAYIMININ BƏZİ PROBLEMLƏRİ

**Xülasə:** *Məqalədə dünya TV sisteminin müasir inkişaf tendensiyası, televiziyanın ictimai həyatda yeri barədə söhbət açılır. Belə bir əsas məsələ vurgulanır ki, hər hansı bir ölkədə telesistemin formalaşması mütləq şəkildə bu sahədə qanunvericiliyin yaradılması ilə şərtlənir. Bu mənada müstəqil Azərbaycan dövlətinin iradəsilə qəbul olunmuş elektron informasiya sahəsindəki qanunların mahiyyəti açılır. Bu şəraitdə ölkədə formalaşmış dövlət, kommersiya və ictimai televiziya sistemi qısa şəkildə təhlilə cəlb edilir, telekanalların tipoloji xarakteristikası ətrafında elmi-nəzəri fikir qoyulur. Məqalə televiziya sahəsində ən yeni yerli və xarici elmi-nəzəri ədəbiyyata söykənir.*

***Açar sözlər:*** *televiziya, kanal, şəbəkə, peyk, tamaşaçı, kommersiya TV, qanun, qanunvericilik bazası.*

Arzu Nasimi gizi Isayeva

## Several problems of modern TV broadcast

***Abstract:*** *The article is about the modern development tendency of th World TV system and the role of television in social life. In any country the formation of telesystem is certainly conditioned with the establishment of legislative system in this sphere. This main point is stressed in this article. In this sense the importance of the laws accepted by the will of the Azerbaijan Republic in the sphere of electron information is opened.*

*In this condition, the formed state of the country, commercial and public television system is tent to short analyses and scientific- theoretical point of view is set up on the typological characteristics of the telechannels. The article is based on a new local and foreign scientific- theoretical literature in the sphere of television.*

***Key words:*** television, channel, net, satellite, audience, users, competition.





№ 2 (15) 2022

Арзу Насими кызы Исаева

## Некоторые проблемы современного телевизионного вещания

***Резюме:*** *В статье речь идет о тенденциях современного развития мировой телевизионной системы и место телевидения в жизни общества, подчеркивается то, что в любой стране формирование телевизионной системы, обуславливается наличием, законодательства в этой области. В этом смысле важное значение имеют законы в сфере электронной информации, принятые в Азербайджанской Республике.*

*В статье рассматривается система государственного, коммерческого и общественного телевещания, функционирующая в стране, высказывается научно-теоретическая мысль о типологической характеристике. В работе использована новейщая отечественная и зарубежная литература по избранной теме.*

***Ключевые слова:*** *Телевидение, канал, сеть, спутник, зрители, пользователь, конкуренция.*

Hazırda internetin sürətli inişafına, onun cəmiyyətə və ayrı-ayrı fərdlərin şüuruna güclü təsiri haqqında geniş danışılmasına baxmayaraq aparıcı kütləvi informasiya vasitəsi olan televiziya (TV) ictimai sferada öz mövqeyini ciddi şəkildə qoruyub saxlayır. Bunu Qərb ölkələrindəki keyfiyyətli ictimai yayım, xüsusən tranmilli telekanalların fəaliyyəti açıq şəkildə sübut edir. Digər tərəfdən hazırda XX əsrin mühüm texnoloji nailiyyətlərinə dair nailiyyətlərdən danışılarkən televiziyanın əhəmiyyəti ayrıca vurğulanır [1; 3; 5].

Həqiqətən, ötən yüzillik bəşər tarixində təkcə kosmik uçuşlar, atom enerjisi əsri kimi deyil, həm də daha çox televiziyanın kəşfi və cəmiyyət həyatına nüfuzlu şəkildə təsiri ilə silinməz izər qoyub. Hazırda çağdaş qloballaşma dövrünün sərhədsiz televiziyası dünyanın inteqrasiyasına, insanların sosial informasiya tələbatının ödənməsinə, maariflənməsinə, estetik zövqünün formalaşmasına xidmət edir. Bu gün toplumun həyatını, insanların məişətini, intellektual gəlişmə prosesini televiziyasız təsəvvür etmək çətindir, Artıq şüurlara fövqəladə təsir imkanlarına və cəmiyyətin inkişaf göstəricisinə çevrilməkdə olan televiziya fenomenini araşdıranlar [1, s. 8-11] onu yeniliklərin operativ yayılmasının ən güclü vasitəsi, eyni zamanda cazibədar incəsənət kanalı kimi dəyərləndirirlər.

Müstəqil Azərbaycanın ictimai-siyasi və sosial-mədəni həyatında da önəmli rol oynayan televiziya getdikcə mühüm kommunikasiya vasitəsinə çevrilərək bütün dünyada olduğu kimi dərin texniki və yaradıcılıq dəyişikliyi keçirməkdədir. İnformasiya texnologiyalarının sürətli inkişafı televiziyanın bir neçə il bundan əvvəl yaşadığı texniki tezlik problemini həll etməyə başlamış, bununla da saysız-hesabsız telekanalların yaranmasına meydan açılmışdır. Bu gün telekanallar ayrı-ayrı sahələr üzrə informasiya, parlament, tədris, mədəniyyət, şou-əyləncə, idman, incəsənət və s. kimi istiqamətlər üzrə

ixtisaslaşma prosesini artıq sona çatdırmaqdadır. Dünya teleməkanında ciddi bir rəqabət getməkdədir. Parobolik antennaların, peyk texnikasının imkanları dünyanın ən ucqar yerlərində bütün kanalları izləmək imkanı verir. Belə bir şəraitdə təkcə hər hansı bir ölkə daxilində deyil, beynəlxalq miqyasda telerəqabət prosesi genişlənməkdədir.

Bu gün insanların informasiya və mədəni tələbatının təmin edilməsi, xalqın maarifləndirilməsi, mənəvi-estetik dünyagörüşün və humanist duyğuların formalaşmasında televiziyanın rolu əvəzsizdir. İndi bütün dünyada, o cümlədən Azərbaycanda televiziya və radio böyük səfərbəredici və təbliğat imkanı olan qüdrətli kommunikasiya vasitəsi kimi qəbul olunur. Hazırda Azərbaycanda dövlət, ictimai və özəl telekanalları birləşdirən müasir çoxşəbəkəli televiziya sistemi mövcuddur. Ölkədə 10 ümumrespublika, 12 regional, 17 kabel, 32 internet, 1 peyk televiziyası fəaliyyət göstərir. Orbitə 2 kosmik peyk çıxarmış Azərbaycan dünyanın kosmik dövlətləri sırasında layiqli yer tutur.

Sovet dövründəki təkkanallı TV sistemindən fərqli olaraq bu gün ölkəmizdə fərqli kanalları özündə birləşdirən yeni yayım şəbəkəsinin formalaşması həm də bu sahədə dövlət siyasətinin tənzimlənməsini zəruri etmişdir. Məhz televiziyaya güclü ictimai marağın nəzərə alınması onun fəaliyyətini tənzimləyən ayrıca qanunların meydana çıxmasına səbəb olmuşdur. Bu qanunlar TV fəaliyyətinin çox müxtəlif spektrli tipoloji nümunələrinin yaranmasını şərtləndirmiş və beləliklə dünya TV məkanında televiziyanın dövlət, kommersiya, ictimai, bələdiyyə tipləri meydana gəlmişdir.

1991-ci ilin oktyabrından sonra müstəqil dövlət kimi formalaşmağa başlayan Azərbaycan bütün sahələrdə olduğu kimi, yazılı mətbuatın və teleradio yayımının da yeni platformaya keçməsi üçün ictimai, siyasi, iqtisadi mühit formalaşdırmışdır. Azərbaycanda dövlətçiliyin möhkəmlənməsi, özəlləşmə prosesinin genişlənməsi, sahibkarlığın, bazar münasibətlərinin formalaşdırılması mediaya tamamilə yeni baxış tələb edirdi.

Bu dövrdə Azərbaycan SSRİ-dən miras qalmış bir ideoloji televiziyadan yeni, çoxspektrli televiziya sisteminə keçməli, ilk növbədə yeni media mühiti və qanunverici baza yaradılmalı idi. Buna görə də 1992-ci ildə "KİV haqqında" Qanun qəbul edildi. Bu qanunda teleradio fəaliyyətinə dair bəzi müddəalar da yer almışdı. Lakin zaman keçdikcə teleradio yayımının tənzimlənməsinə ehtiyac duyulduğu üçün 2002-ci ildə "Televiziya və radio yayımı" haqqnda Azərbaycan Respublikasının Qanunu qüvvəyə mindi. Bu qanunla telekanalların fəaliyyəti lisensiyalaşdırıldı, ölkədə özəl TV, radio kanallarının inkişaf prosesi yeni mərhələyə qədəm qoydu [3, s. 12-14].

Azərbaycan teleməkanının əsa sözəlliklərindən biri burada dünyadakı TV modellərinin, o cümlədən ictimai yayəm formasının mövcud olmasıdır. Avropa ölkələrində 1980-cı illərin əvvəllərindən formalaşmağa başlayan ictimai televiziya öz xarakterinə, ictimai vəzifəsinə və cəmiyyət qarşısında borcuna görə xüsusi tipoloji model mahiyyəti kəsb edir. Hələ yarandığı ilk vaxtlarda "bir qayda olaraq, yüksək texniki və keyfiyyət standartları ilə işləməsi, cəmiyyətin





elitar-intellektual təbəqəsini özünə cəlb etməsi, xalqın maariflənməsi qayğısına qalması, insan ləyaqətinə, hüquq və azadlıqlara saygı ilə yanaşması, milli əxlaq normalarına, mənəvi prinsiplərə əsaslanması, proqramlarının tam peşə standartlarına uyğunluğu, hər cür təmənna və qərəzdən uzaq olması ictimai TV ideyasını xeyli populyarlaşdırırdı" [3, s. 27]. Avropa Şurası belə bir TV kanalının demokratik dəyərlərin formalaşmasında rolunu nəzərə alaraq bu quruma üzv ölkələrdə onun gerçəkləşməsini bir vəzifə kimi qarşıya qoyurdu.

Azərbaycanın Avropa Şurasına üzvlüyü ilə bağlı götürdüyü öhdəliklərdən biri də ölkədə ictimai teleradionun yaradılması oldu. Bu öhdəlik də tezliklə gerçəkləşdirdi. 2004-cü ildə Azərbaycan Respublikasının Milli Məclisi "İctimai yayım haqqında" Qanun qəbul etdi. 2005-ci ildə isə artıq bu televiziya fəaliyyətə başladı. Bu televiziyanın yayım fəaliyyətinə və mövcud qanunun tələblərinə nə dərəcədə uyğun fəaliyyət göstərməsinə münasibətdən asılı olmayaraq artıq 17 ildir ki, yayım aparan İTV-nin mövcudluğu Azərbaycan televiziya mühitinin danılmaz reallığıdır. Hazırda bu telekanal bir sıra maraq doğuran layihələri, ilk növbədə isə ictimai-siyasi mövzuda keçirilən diskussiya proqramları ilə tamaşaçıların diqqətini özünə cəlb etməyə çalışır.

Bu gün Azərbaycanda kommersiya (özəl) televiziyaları da dinamik şəkildə inkişaf edir. Real TV, Space, Xəzər, ATV, ARB, ARB-24 kimi kanallar da yeni tipli televiziya formalarının ifadəçiləridir. Postsovet məkanında Azərbaycan Respublikasının "Televiziya və Radio Yayımı haqqında" Qanunu kommersiya TV kanallarının formalaşmasını sürətləndirmişdir. İndi bu qanun əsasında Azərbaycanın bir çox bölgələrində - Gəncədə, Qubada regional TV kanalları uğurla fəaliyyət göstərir. Bu ildən başlayaraq həmin telekanalların fəaliyyəti 2021-ci ildə Milli Məclisdə qəbul olunmuş "Media haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

Çağdaş teleməkanımızın əsas problemlərindən biri auditoriyayay aktual və operativ informasiyaların çatdırılması, yüksək tamaşaçı zövqünü oxşayan verilişlərin hazırlanması, tədris-maarifçilik, ictimai müzakirə və intellektual yarışma proqramlarının hazırlanmasıdır [2; 3; 5; 8]. Müəlliflik hüququ qorunmaqla alınmış xarici filmlərin Azərbaycan dilində orijinal səslənməsi üçün çox geniş tərcüməçi və aktyor potensialı seçilsə də, ədəbi dillə, danışıq normaları ilə bağl problemlər hələ də qalmaqdadır. TV-lərdə çalışanlar dilimizdə olan söz ehtiyatlarından maksimum şəkildə istifadə etməyə, eyni zamanda yalnız Azərbaycan dilinin ahəng qanununa uyğun şəkildə cümlə qurmağa çalışırlar. Azərbaycan dövlət müstəqilliyi əldə etdikdən sonra Azərbaycan dilinin qorunması və inkişaf etdirilməsi məsələsi daha da aktuallaşmışdır.

Bu gün biz böyük qürur hissiylə yaşadığımız ölkələrin dövlət və hökumət rəsmiləri, elm və mədəniyyət xadimləri ilə görüşlərimizdə Azərbaycanın əldə etdiyi uğurları, dünya birliyinə inamlı inteqrasiya xəttini nümunə göstərir. Bu gün vətən hüdudlarından uzaqlarda yaşayan hər bir azərbaycanlının özünəməxsus problemləri mövcuddur. Bu problemlərdən biri də xarici ölkələrdə doğulub boya-başa çatan uşaqlara və gənclərə doğma ana dilimizin şirinliyini, qədim adət-

ənənələrimizi, zəngin mədəniyyətimizi, çox əsrlik tariximizi, bir sözlə, milli-mənəvi dəyərlərimizi öyrətməkdir. Soydaşlarımızın yaşadığı ölkələrdə Azərbaycan dili məktəblərinin və yaxud əyani vəsaitlərin olmaması ciddi problemlərdəndir. Buna görə peyk rabitəsi vasitəsilə bütün dünyaya yayımlanan Azərbaycan televiziyaları uşaq və gənclərimiz üçün əsl məktəb rolunu oynayır.

Ekranda jurnalist məharətinin əsasınısöz – insanın fikir və duyğularının səslə ifadə etməyin müstəsna qabiliyyəti təşkil edir. Sözün TV-dəki müxtəlif funksiyalarını belə müəyyənləşdirmək olar: Bu, natiqin, hekayətçinin, həmsöhbətin, təbliğatçının, diktorun, şərhçinin, şahidin, dünyagörmüş adamın sözüdür. Təkcə insanın ekranda çıxış etdiyi televiziya rollarının sadəcə sadalanması TV-nin nitq spesifikası, tədqiqatının və TV ekranında səslənən nitqin bütün janr və formalarının, eləcə də üslubi çalarlarının elmi sistemləşdirilməsinin çətinliyini sübut edir. Bu çətinliklər televiziyanın strukturumun çoxjanrlılığı, onun estetik sisteminin, yəni dilinin, buradakı sözün mürəkkəb, semantik xüsusiyyətləri ilə bağlıdır. Təsvir və səslə müşayət olunan bu söz həm də, üslubi çalarlara malikdir. Məhz bu üslubi çalar sözün həqiqi mənasını, əsl incə fikri belə ən əlverişli dil vasitəsilə gözəl bir formada auditoriyaya çatdırmağa imkan verir. Hər bir jurnalist, diktor aparıcı, rejissor bunu bilməli və üslubi formalara ciddi riayət etməlidir.

TV-nin fəaliyyəti hər zaman mübahisə obyekti olub: dünən də, bu gün də. Xüsusən mütəxəssislər və müstəqil mətbuat daim televiziyalara xalqın, cəmiyyətin güzcüsü olduğunu xatırladırlar. Efirdə jurnalistika çərçivəsindən kənara çıxmalar, qeyri-etik hərəkətlər, dil xətaları, şabonçuluq, bir-birlərini təkrarlamalar tamaşaçının nəzərindən qaçmır. Verilişlərin bir-irinə bənzəməsi və digər bu kimi hallar tamaşaçıları kanalı dəyişdirməyə vadər edir. Televiziya ilk növbədə mədəniyyətdir, dəqiqlikdir. Və o da danılmaz faktdır ki, seçim çox böyükdür. Azərbaycanda fəaliyyət göstərən televiziyalarla yanaşı tamaşaçılar xarici telekanalları da izləyə bilirlər [1; 4; 6].

Müasir dünya televiziyaları milli, sosial-psixoloji, sənət amilləri və tamaşaçı marağını nəzərə alaraq işləyir. Azərbaycanda fəaliyyət göstərən televiziyalar da həmçinin. Adətən televiziyalar öz yayım siyasətlərində ya auditoriyanın istəklərinə uyaraq kütləviləşir, ya öz prinsiplərinə sadiq olur, ya da iki yol ayrıcında qalaraq yayım konsepsiyalarsını dəqiqləşdiməkdə çətinlik çəkir. Öz dəsti-xətti, gerçəkliyi duyub əksetdirmə üslubu, siması bəlli olmayan TV-nin audioriya toplamasının mümkün olmadığı artıq çoxdan sübut olunub.

Başqa janr sistemlərinə genetik və funksional baxımdan nə qədər yaxın olsa da, telejurnalistika janrlarının söz-görüntü-səs kontrapunktu ilə ifadə olunmuş özünəməxsus xüsusiyyətləri var. Telejurnalistlərin qarşısında duran başlıca vəzifələrdən biri yayımın səmərəsini artırmaq üçün bu xüsusiyyətlərdən ustalıqla faydalanmağı bacarmaqdır. Nəzərə almaq lazımdır ki, telejurnalistikanın hər bir janrı ehkam deyil, vaxtaşırı yeni elementlərlə zənginləşən, canlı yaradıcılıq məhsuludur.





Azərbaycanın televiziya məkanında periodik olaraq yayımlanan, efirin tələblərinə tam cavab verən materiallara elə də çox rast gəlinmir. Bununla belə, ölkəmizin aparıcı televiziya kanalları olan AzTV, Xəzər, İTV, Mədəniyyət, Space, İdman, Real, ARB, ARB 24, CBC Sport və ATV-də dünyanın populyar telekanallarının analoji verilişlərinin təcrübəsi nəzərdən keçirilir, yeri gəldikcə, ümumiləşdirilmiş elmi tövsiyələr irəli sürülür.

Elektron kütləvi informasiya vasitələri cəmiyyətin inkişafına ciddi təsir göstərən, onun vəziyyətini və mahiyyətini müəyyənləşdirən siyasi sistemin tərkib hissəsidir. Heç kəsə sirr deyildir ki, KİV yarandığı gündən ayrı-ayrı sosial qrupların, hətta şəxslərin maraqlarını özündə açıq şəkildə əks etdirir. Onların fəaliyyəti cəmiyyətdə baş verən reallıqlara münasibət formalaşdırır, ictimai-siyasi təsir göstərir. Buna görə də KİV təkcə informasiya ilə kifayətlənmir, həm də yeniliklərə şərh verir, ayrı-ayrı ideyaları, təlimləri, siyasi proqramları, təbliğ və təşviq edir. KİV insanlarda ictimai fikirlər, inam və sosial fəallıq formalaşdırmaqla onları müəyyən fəaliyyətə çağırır [2, s.118]. (2, s.118).

Azərbaycanda televiziya yayımı sistemi, bütün dünyada olduğu kimi, internet və sosial şəbəkələrlə ağır rəqabət şəraitində fəaliyyət göstərir. Məhz bu rəqabət şəraiti televiziya əməkdaşlarından daim yaradıcılıq işiaparmağı, yeni layihələrlə çıxış etməyi, hər gün rəngarəng proqramlar menyüsü hazırlamağı, daim tamaşaçı marağına xidmət olunmasını tələb edir. Bu tələblər isə statusundan, maliyyələşmə üsulundan və əmlak mənsubiyyətindən asılı olmayaraq bütün televiziya kanallarına aiddir.

## ƏDƏBİYYAT

1. *Əlibəyli E. Televiziya yayımının təhlil metodologiyasının əsas istiqamətləri. - Bakı: Günəş, 2016.*
2. *Xəlilov S. Baxış bucağı. Fəlsəfi publisistika. - Bakı: Elm və Təhsil, 2010.*
3. *Məhərrəmli Q. İctimai televiziya: prinsiplər, reallıqlar, perspektivlər.-Bakı, 2003*
4. *Məmmədova S. Azərbaycan radiosu ilk elmi araşdırmalarda. Bakı: Elm və təhsil, 2018.*
5. *Медиа. Зарубежный учебник / Под редакцией Адама Бриджа и Поля Кобли. - Москва: Юнити, 2005.*
6. *Vivan C. Kütləvi kommunikasiya mediası. - Bakı, Teass Press, 2021.*
7. *Засурский Я.Н., Мир коммерческих телевидений. МГУ, серия "Журналистика", 2001, №3, стр. 6.*
8. *Землянова Л.М. Медиа и политика в переходный период. - Москва: Вестник МГУ, серия «Журналистика», №5, с.95.*